# Cabir Novruz və Sabir Rüstəmxanlının lirik poemalarının janr xüsusiyyətləri və tipologiyası

**Aytac İsmayıllı**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: ismayilliaytac94@gmail.com

**Annotasiya.** Məqalədə lirik poemanın tipologiyası və janr xüsusiyyətləri Cabir Novruzun "İtmiş kəndin nağılları", "İnsan himnləri", Sabir Rüstəmxanlının "Bütövlük", "Vətənsiz" poemalarının əsasında tədqiqata cəlb olunmuşdur. Cabir Novruzun "İtmiş kəndin nağılları" poeması təəssüratlarını, duyğularını çatdırmağa çalışan lirik qəhrəmanın nitqi olaraq qurulur. Şair bir kəndin məhv edilməsindən irəli gələn kədərini görüb-eşitdiklərinə, anımlara əsasən qələmə alır, bu yolla əsas fikirlərini çatdırır. Cabir Novruzun "İnsan himnləri" poemasının əsasını lirik qəhrəmanın hisslər və düşüncələr axını təşkil edir. Lirik qəhrəman dünya və insan, insana xas bir sıra duyğular haqqında fəlsəfi baxışlarını ifadə edir. Monoloq əsasında qurulan "Vətənsiz" poemasında Sabir Rüstəmxanlı millilik və vətənpərvərlik duyğularını təbliğ edir. İctimai-siyasi məzmunlu, poema-müraciət formasında yazılan "Bütövlük" poemasında şair bir xalqın bütövləşməsi uğrunda mübarizəsini ifadə edir. Hadisə və fikrin köçürülməsi metodundan istifadə edən şair üçün publisistik nitq lirik başlanğıcın xüsusi ifadə formasına çevrilir. Lirik başlanğıc, lirik qəhrəman, lirik süjet və başqa bir sıra xüsusiyyətlərini araşdırmaya cəlb etdiyimiz lirik poemalar üçün ümumi səciyyəvi əlamətlərin olması müəyyən olunur. Eyni zamanda tədqiqat nəticəsində həmin poemaların məzmun, forma, mövzu, ideya və digər fərdi spesifik xüsusiyyətləri ilə seçilməsi aydınlaşdırılır.
**Açar sözlər:** lirik poema, lirik qəhrəman, assosiativ poema, lirik-fəlsəfi poema, poema-müraciət

**Məqalə tarixçəsi:** göndərilib – 13.09.2022; qəbul edilib – 24.09.2022

# Genre characteristics and typology of Jabir Novruz and Sabir Rustamkhanli's lyrical poems

**Aytaj Ismayilli**
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: ismayilliaytac94@gmail.com

**Abstract.** In the article, the genre characteristics and typology of the lyrical poem are studied based on Jabir Novruz's "Tales of the Lost Village", "People's Hymns", Sabir Rustamkhanli's "Wholeness", "Stateless". Jabir Novruz's poem "Tales of the Lost Village" is constructed as a speech of a lyrical hero trying to convey his impressions and feelings. The poet writes down his sadness caused by the destruction of a village based on what he saw and heard, memories, and in this way conveys his main ideas. Jabir Novruz's poem "Human Hymns" is based on the flow of feelings and thoughts of the lyrical hero. The lyrical hero expresses his philosophical views about the world and man, a number of human emotions. Sabir Rustamkhanli promotes the sense of nationality and patriotism in the poem "Stateless" based on a monologue. In the poem "Wholeness" written in the form of a poem-appeal with socio-political content, the poet expresses his struggle for the integration of a nation. For the poet who uses the method of transfer of event and thought, journalistic speech becomes a special form of expression of the lyrical beginning. Lyrical beginning, lyrical hero, lyrical plot and a number of other features are determined to be common

characteristic features for the lyrical poems we have involved in the study. At the same time, as a result of the research, the selection of those poems with their content, form, theme, idea and other individual specific features is clarified.

**Keywords:** lyrical poem, lyrical hero, associative poem, lyrical-philosophical poem, poem-appeal

**Article history:** received − 13.09.2022; accepted − 24.09.2022

## Giriş / *Introduction*

Ədəbiyyatın inkişafının müəyyən pillələrində janr sistemi əhəmiyyətli bir deformasiyaya məruz qalır, dəyişikliyə uğrayır. XX əsrin əvvəllərində poeziyanın bir sıra əsas xüsusiyyətlərinə malik, lakin ənənəvi epik əsası olmayan iri poetik əsərlərin ortaya çıxması fakta çevrilir. Bu dövr ədəbiyyatda keçid dövrü kimi xarakterizə olunur, dünyanın mənzərəsi, insan, onun təbiəti, dünyadakı yeri haqqında təsəvvürlər dəyişir. Qarşıdan gələn inqilablar və dünya müharibələri dövrün, ictimai həyatın, ideologiyanın, siyasətin problemlərini aktuallaşdırır. "XIX əsrin sonu, XX əsrin əvvəllərində tarixi situasiyanın dəyişməsi ilə müasir prosesin yeni mahiyyət qazanması üçün köhnə, ənənəvi postulatların inkarı, onlara şübhəylə yanaşma meyli güvvətləndi", – [13, s.19] deyə T.Nikonova yazır.

XX əsr boyu ədəbiyyatda subyektiv, şəxsi, lirik prinsip artır, insan dünya ilə bərabərləşir. Lirizasiya həm epikaya, həm də drama təsir edir. Təəccüblü deyil ki, poema bu prosesə digər janrlardan daha qabarıq reaksiya verir. Bir insanın daxili dünyası, düşüncələri, hissləri, yaşantıları, duyğuları, əhval-ruhiyyəsi ədəbiyyatda əsas təsvir predmetinə çevrilir. Lirik təsvir sahəsinin genişlənməsi lirik poema janrının yaranmasına kömək etmişdir. İlk dəfə lirik poema termini V.Belinski tərəfindən romantik poemanın növlərindən biri olaraq təqdim edilmişdir.

## Əsas hissə / *Main Part*

XX əsrin əvvəllərində əsas diqqəti daxili dünyanın əks olunmasına yönəldən yeni poema növü – lirik poema olduqca geniş yayılmışdı. Gec yaranmasına və üstəlik, lirik janrların bəlkə də ən mürəkkəbi olmasına baxmayaraq, poemanın bu tipi sonralar şairlər üçün geniş imkanlar açmışdır. "Süjet poemanın bel sütunudur", – [2, s.24] deyən Xəlil Rza Ulutürk lirik poemaların yaranması və geniş yayılması haqqında yazır: "Şairlərin həyatdan aldıqları coşğun və dərin təəssürat getdikcə kiçik poetik formalara sığışmır, onları bu yeni janra əl atmağa vadar edir" [2, s.22].

Lirik poemalar, əsasən, subyektiv və fərdi bilikləri özündə ehtiva edir. Şairlər lirik poemanı nitq normalarından azad edirlər ki, nəticədə, lirik mövqe daha sərbəst və maneəsiz sözlərlə təcəssüm olunmağa başlayır. Lirik poemanın tarixi analogiyasını tapmaq çətindir, çünki struktur baxımından bu janr çox müstəqildir. Bəzi nəzəriyyəçilərə görə, "bu tip əsərlərdə lirik prinsip aparıcıdır, buna görə də onları epik cinsə aid etmək olmaz. Amma lirik poemanın ruhi, etirafçı tonuna baxmayaraq, xarici dünya yox olmur. Lirik şeirdən fərqli olaraq, burada şair tək qəhrəman deyil" [9, s.127]. Onun ən əsas janr xüsusiyyəti burada birbaşa nümayiş obyektinin real dünya ilə bağlı olan müəllifin, lirik qəhrəmanın daxili aləminin olmasıdır.

Eyni zamanda ədəbiyyatşünaslıqda lirik poemanın tarixini iki prinsipin: epik və lirikin bədii bütövlükdə dominantlıq uğrunda mübarizəsi, onların qarşılıqlı təsiri kimi nəzərdən keçirmək ənənəsi mövcuddur. Bu halda lirik poema bir növ lirik-epik kimi müəyyən edilir. Lirik poemanın inkişaf yolunu izləyən, janrın xüsusiyyətlərini müəyyən etməyə çalışan L.Dolqopolov belə qənaətə gəlir ki, "lirika epos funksiyasını öz üzərinə götürür" [10, s.138].

Ədəbiyyatşünas V.Kikans qeyd edir ki, lirika faktların epik dəqiqliyini istisna etmir, əksinə, "dünyanın epik mənzərəsini yaradır" [11,

s.196]. Qəhrəmanın ruh vəziyyətinə nüfuz etmək, onun daxili aləmini, hisslərini, qavrayışını öz qiymətləndirməsi və baş verənləri yenidən düşünməklə göstərmək liriklərin nail olmağa çalışdığı əsas məqsədidir. Ancaq lirik qəhrəmanın hiss və düşüncələrində təkcə fərdi təcrübənin deyil, həm də xalqın, ölkənin tarixini əhatə etməyə, dərk etməyə qadir olan bütün cəmiyyətin təcrübəsinin olması müşahidə olunur.

Məlum olduğu kimi, bədii mətnin sirlərini açan, müəllifin niyyətinin poetik şəkildə reallaşması üçün universal vasitə süjetdir. Bu yanaşma eyni şəkildə yanaşılmayan çoxistiqamətli anlayışları, lirik və epik mətnlərdəki əlamət və xüsusiyyətləri özündə birləşdirir. Lirik süjetin spesifikliyi, onun epik və ya dramatik süjetdən fərqi məsələsi daha problemlidir. Lirik süjet anlayışının mənalı iki hissədən ibarət olması onun başa düşülməsini çətinləşdirir. Epik və dramatik süjetlər bu prizmadan daha ciddi olaraq qəbul edilir. Lirik poema isə vahid bir bütövün parçasıdır, lirik qəhrəmanın özünəməxsusluğu, onun özünüdərkinin mərhələləri xüsusi daxili süjet üzərində qurulur. Lirik süjet epik süjetə aid müəyyən xüsusiyyətlərə malikdir, eyni zamanda lirik süjetdə yalnız ona xas olan xüsusi cəhətlər də vardır. Y.Lotman lirik süjeti "Hadisələr – əsas və yeganə, lirik dünyanın varlığı haqqında" [12, s.108] əsər kimi qiymətləndirir. Lirik süjetin mahiyyəti ondan ibarətdir ki, o, epik süjet kimi konkret hadisəliliklə deyil, emosional vəziyyətlərin dəyişməsi ilə əlaqələndirilir. Lirikada süjetin dərk edilməsinə yanaşmaların müxtəlifliyinə baxmayaraq, aydındır ki, poetik mətnləri təhlil edərkən lirik situasiyaların hadisə tərəfi həddindən artıq azalsa da, ona məhəl qoymamaq səmərəsizdir.

Lirik poemanın mövzusu müxtəlif dövrlərdə və janr dəyişikliklərində ümumbəşəri əhəmiyyət daşıyır, sanki xalq ruhunun əksini təmsil edir, insanın yüksək, ən gözəl arzuları ilə əlaqələndirilir. V.Belinskinin təbirincə desək, burada "kamil insanın ən dərin dünyagörüşü və əxlaqi sualları" [7, s.415] yer alır.

Lirik poemanın orijinallığı lirik qəhrəmanın daxili aləmi və yaşadıqlarının vurğulanmasıdır. Bu, yalnız xarici aləmin hər hansı bir vizual obrazı olmayan əsərlərdə deyil, həm də təsviri əsərlərdə də aydın görünür. Dünya ilə üzvi şəkildə bağlı olan lirik qəhrəmanın ruhunun mürəkkəb dialektikasını lirik poema ortaya qoyur.

Cabir Novruzun "İtmiş kəndin nağılları", "Qərbi Berlin" kimi assosiativ poemaları, "Zaman" poema monoloqu, "İnsan himnləri" lirik-fəlsəfi poeması, "Elegiya" və başqa lirik səpkili poemaları vardır.

C.Novruzun "İtmiş kəndin nağılları" poemasında şair səfəri zamanı yandırılaraq özü və əhalisi məhv edilmiş Liditse kəndində törədilən vəhşilikləri dərin kədərlə qələmə alır. Əhvalatçılıq poetik təfəkkürün assosiyalar, anımlar üzrə nəql edilməsi ilə əvəz olunur. "Göründüyü kimi, lirik qəhrəman konkret əhvalatla bağlı ümumiləşdirmələr aparır, poetik mühakimələr xüsusidən ümumiyə doğru yönəlir. O yerdə ki, mühakimələr analitikdir və obrazlar bədii-psixoloji cəhətdən müəyyən assosiativ əsaslara malikdir, onda intonasiyanın sabitliyi öz effektini zəiflətmir" [1, s.172]. Poema vahid süjet xətti əsasında sona qədər davam etmir, ayrı-ayrı kiçik süjetlər üzərində qurulur. Poemada motivləri, obrazları, inkişaf edən və dəyişən süjet vəziyyətlərini görmək olar. Kəndin xəyallardan silinməyən xoş günlərinin ardınca Liditsenin qısa zamanda yandırılması, yer üzərindən silinməsi, insanların faciəli həyatı nəql olunur:

*Dayanmışdım... yana-yana,*
*Dayanmışdım əsə-əsə...*
*Elə bil ki, dayanmışdım*
*neçə aydı, neçə gündü,*
*Az qalırdı qışqıram ki,*
*əsa verin mənə, əsa,*
*Sanırdım ki, ağaracaq saçım indi,*
*büküləcək belim indi.* [4, s.164]

Baş verən hadisələri duyduqları və gördüklərinə əsasən analiz edən müəllif şəxsiyyəti aparıcı rol oynayaraq qəhrəmanlarından ön planda dayanır və sanki öz dünyagörüşünü, ideyalarını oxucuya aşılayır: "Lirik-strukturlu poema müəllifi həyatın mənasını dərketmə dərinliyi ilə bizi heyrətləndirməli və təkcə poemada çıxış edən qəhrəmanlardan deyil, həm də göstərilən oxucunun qavrama bacarığından "daha yüksək"də olmalıdır" [14, s.66-67]. Müharibə, onun ağrılarını duyan şair qəzəbini, nifrətini yer üzərindən silinmiş kənddən, ittiham kürsüsün-

dən danışmaqla dünyaya hayqırmaq istəyir. "Ətraf mühitdə, dünyada gedən təzadlı hadisələrə politik təmas şairi və subyektiv lirik "mən"i çərçivəsindən qlobal düşüncə çərçivəsinə malik mənə çevirir. Lirik qəhrəman bu məqamda bəşəriyyətin bu günü və gələcəyinə bağlı insanı təmsil edir" [6, s.3]. Lirik qəhrəman "İtmiş kəndin nağılları" poemasında Liditsenin məhvinə ümumbəşəri problem kimi yanaşır.

Lirik-fəlsəfi poemanın xarakterik cəhətləri həyat, ölüm, dünya, varlıq, zaman və məkan kimi mövzuların dərk edilməsinə poetik münasibət, məntiqi ümumiləşdirmənin üstünlük təşkil etməsi, obyektiv düşüncənin orijinallığı, fikrin spesifik genişlənməsi, ziddiyyətlərin başa düşülməsi, keçmiş, indiki, gələcək zamanların, müəyyən düşüncənin və ya həqiqətin konkretləşdirilməsi, faktiki yaradıcılıq təcrübəsinin, təcrübə ilə konkret anlayışların ümumiləşdirilməsinin böyük rolu ilə səciyyələnir. Cabir Novruzun da "İnsan himnləri" poeması dünya və insanın dərkinə yönəlmiş, lirik qəhrəmanın fəlsəfi baxışlarının təzahürüdür. Əsərin mərkəzində şüurunu ətrafdakıları anlamaq cəhdi ilə əlaqəli ziddiyyətli düşüncələr narahat edən lirik qəhrəman dayanır:

*Hər bir şeyin sürət ilə*
*dəyişdiyi dövrdə mən,*
*İstəyirəm şeirdə mən*
*Hər insanı insan edən,*
*Hər bir kəsin varlığında*
*yanan, coşan,*
*üsyan edən*
*Milyon illər dəyişməyən*
*duyğuları vəsf eləyim,*
*Bu şeirimi*
*mən onlara həsr eləyim...* [4, s.113]

Poemada dünya və insan, insana xas bir sıra duyğular – məhəbbət, həqiqət, bütövlük, ilkinlik, təbiilik, inam vəsf edilir. İnsanı tükənməz xəzinə olaraq qiymətləndirən şair lirik poemada bəzi fəlsəfi məsələləri və mövzuları dərindən dərk etməyə cəhd göstərir. Öz dövrü və insan haqqında tarixi, psixoloji cəhətdən dəyərli bir poema yazan şair dünya haqqında poetik bilikləri çatdırır. Bütün gözəlliklərin məhəbbətdən yarandığını vurğulayan şair onun hər şeyi fəth edən gücündən bəhs edərək bəşəriyyətin sevgisizlikdən qaynaqlanan çatışmazlıqlarından danışır. Şair poemada həqiqətin ucalığını vəsf edir, onun fəlsəfi cəhəti hisslər ilə zəngin dərin düşüncələrlə təmsil olunur.

Lirik başlanğıc xüsusi bir süjet növü təyin edir. Xarici, obyektiv reallıq, qəhrəmanın təcrübəsində təcəssüm olunur. Bir şəkli, xarici dəyişikliyi lirikaya xas olan meditativ prinsipi əvəz edir, nəql edən xarakter olmağa meyillidir, düşüncələri və duyğuları obyektivləşdirilir. Buna görə də poemanın əsasını lirik qəhrəmanın hisslər və düşüncələr axını təşkil edir. "Süjetdə subyektiv prinsipin üstünlüyü uyğun kompozisiyanı, tez-tez metaforaların mürəkkəbliyində, poetik dilin qəribə bir şəkildə məhv edilməsində, söz yaradıcılığının subyektivliyində ifadə olunan cığırların kəskin ifadə olunmasını müəyyən etdi" [8, s.136]. Əsas kompozisiya yükünü gerçək hadisələri qəlbindən, şüurundan keçirən şair şəxsiyyəti daşıyır. Poemanın süjeti lirik qəhrəmanın ruhunun dialektikası, düşüncə və hisslərin inkişafındakı ziddiyyətli proses, bu prosesdə məqam və mərhələlərin dəyişməsidir. Şair atasını xatırlayır, bütövlüyün insan həyatında vacibliyini onun timsalında əks etdirir. O, "İlkinlik himni"ndə həyatının ilk çağlarını, ilklərini, yaşadığı balaca komanı, ona doğma olan insanların yüksək əxlaqi keyfiyyətlərini yada salır. Poemanın özəlliyi bilavasitə şairin təcrübələrini çatdırması və buna görə də daxili aləmini əks etdirən süjet üzərində cəmləşməsidir. Lirik qəhrəman "Təbiilik duyğusu"na həsr etdiyi himnində insanları sünilikllərdən uzaq olmağa, "İnam himni"ndə isə müharibə dövrünü xatırlayaraq ən qüdrətli silahın inam olduğunu deyərək, onları inamlı olmağa çağırır. Cabir Novruz da fəlsəfi düşüncələr prizmasında poemalarını daha da əhəmiyyətli, dəyərli edən qlobal, irimiqyaslı mövzulara toxunmağa və həll etməyə çalışır. Poemanın məzmununun əsasında duran problemlərin dairəsi çox müxtəlifdir, hər biri şairin fərdi poetik təfəkkürünün miqyası ilə müəyyən edilir. Onların həllinin xarakteri isə mövzunun mahiyyətinə fəlsəfi nüfuz ölçüsü ilə bağlıdır.

Sabir Rüstəmxanlının "Bütövlük", "Azərbaycan irticası", "Didərginlər", "Hər kəs günəşi sevsə", "Vətənsiz", "Orxonla görüş" kimi lirik səpkili poemalarında millilik, bütövlük uğrunda

mübarizə, tarixən baş verən hadisələrə vətənpərvərlik aspektindən yanaşma aydın görünür. Cənub mövzulu "Vətənsiz" poemasını şair Almaniyaya səfəri zamanı Azərbaycan dilində danışmağa çətinlik çəkən, yoxsulluq içində olan bir ailə ilə qarşılaşmasından yaranan təəssüratları əsasında qələmə alıb. Poemada şair azadlığını itirən xalqın əziyyətini, təzyiqlərə məruz qalmasını, bundan irəli gələrək həmyerlilərinin ana dilini unutmasını, vətənpərvəlik duyğusundan məhrum olmasını bir ailənin timsalında canlandırır. Hadisələri təsvir edən epik poemadan fərqli olaraq, lirik poema hekayə izhar etmək məcburiyyətində deyil. "Vətənsiz" poeması da şairin hiss və duyğularının fərdi ifadəsidir. Bir-iki dialoqu çıxmaqla poema şairin monoloqundan ibarətdir:

*Yenə Qərb yollarında*
*bir didərgin dolaşır,*
*Yenə məmləkətimin*
*bir yuvası dağılır.*
*Bəlkə mən son dayağam,*
*sınsam vətən də sınar.* [5, s.105]

Lirik qəhrəman duyğularını ifadə edən insanda bir xarakter təqdim edir. Poemada vahid bir hekayə danışmaq əvəzinə, müəyyən ruh halları və ya emosional vəziyyətlər göstərilir. Vətənpərvər şairin daxili düşüncələri əsasında qurulan poemada öz doğma dilini unudub, vətəninə xor baxanlar tənqid hədəfinə çevrilir. Mətnin emosionallığı, hisslərin güclü ifadə olunması, mövzuya dərindən şəxsi yanaşması onun poemasını xarakterizə edir. Buna görə də lirizm poemanın əsas elementini təşkil edir. Zamanın həqiqi əlamətləri, hadisələrin və faktların spesifik xüsusiyyətləri poemada vətən, xalq, tarix mövzusunun canlı və dərindən əks edildiyi qənaətinə gəlməyə imkan verir. Burada şairin lirik məni, vətəndaş mövqeyi, fərdiliyi daha canlı şəkildə əsərə nüfuz edir.

İctimai-siyasi məzmunlu lirik poemanın dəyərli nümunələrindən biri də Sabir Rüstəmxanlının poema-müraciət formasında yazılmış "Bütövlük" əsəridir. Lirik başlanğıcın substantiv mahiyyətində Vyetnam xalqının müstəqillik əldə edənə qədər apardığı çətinliklərlə dolu mübarizə yolu, qələbə əzmi, parçalanmış xalqın bütövləşməsi dövrünü səciyyələndirən tarixi proses və hadisələr əks olunur. "İctimai, mənəvi, əxlaqi bir tamlıq və bütövlük mövzusu... S.Rüstəmxanlının "Bütövlük" poemasında hərarətlə tərənnüm olunur" [3, s.70]. Lirik qəhrəman bölünmüş Vyetnam xalqının birləşməsi fonunda doğma vətəni Azərbaycanın bütövlüyü arzusuna işarə edir. Hadisə və fikrin köçürülməsi metodundan istifadə edərək xalqını müstəqilliyə, bütövlüyə səsləyir. "Burada da həyatın poetik dərkində lirik qəhrəman təkdən ümumiyə doğru gedir. Vyetnam xalqının azadlıq idealları, yenilməz bir xalqın milli dövlət uğrunda mübarizəsi və onun bəhrəsindən doğan sevinc hissləri geniş poetik ümumiləşdirmə gücünə malikdir" [1, s.176]. Lirik qəhrəman ənənəvi "mən"də deyil, ümumiləşdirilmiş "biz"də təcəssüm olunur. Bununla şair tək öz düşüncələrini və hisslərini deyil, bütün xalqın düşüncələrini ifadə edir. Lirik "mən"in böyüklüyü və gücü dünyanı dəyişdirən və hər şeyə öz qiymətini verən nəhəng bir xalqa aiddir. Lirikanın daxili hərəkətverici impulsu, onun semantik quruluşunun əsası lirik qəhrəmanın müəyyən bir fərdi tərcümeyi-halında mərhələ təşkil edən bu və ya digər fenomeni, ya başqa bir hadisəni dərk etdiyi məqamdır. Poemada lirik süjet şairin düşüncəsinə, şüuruna təsir edən ziddiyyətləri, dövrünün əsas problemlərini həll etmək istəyini, lirik qəhrəmanın hisslərini son dərəcə kəskinləşdirir, bir hiss digərinə keçir, dünyanın qavranılmasının yeni imkanları yaranır. Lirik süjet lirik hadisənin mahiyyətini təşkil edən hisslərin dinamikasını təmsil edir, subyektin daxili vəziyyətindəki dəyişikliklərin təsviri olan hadisələrdən ibarətdir.

Keçmişə nəzər salan şair tarixin müəyyən səhifələrindən dərs çıxarır. Bu yaddaş dərsləri oxucuya aydın əxlaqi dəyərlər mənimsəməyə və sabit mənəvi mövqe formalaşdırmağa kömək edir. Mövzunun daha geniş əhatə dairəsi ilə əks etdirilməsi və bütün zamanla xarakterizə olunması müəllifin lirik poemalarında qarşıya qoyduğu məqsədlərdəndir. Lirik qəhrəman keçmiş hadisələri xatırlayır, onu dəyərləndirir və gələcəyini düşünür.

Yarımçıq cümlələr və ifadələr, ritorik suallar və nidalar lirik qəhrəmanın düşüncəsini, həyəcanını, gərginliyini və hisslərini çatdırır. Əhval-

dakı dəyişikliklər ritmik fasilələr, anaforik şəkildə qurulmuş misralar və çoxsaylı təkrarlamalarla müşayiət olunur.

*Müstəqillik! İlk inamım, ilk həsrətim!*
*Müstəqillik! Xalqın məslək bayrağıdır.*
*Müstəqillik – hər ölkənin, hər məmləkətin*
*Zülm, əsarət orbitindən çıxmağıdır!* [5, s.105]

Lirik-publisist poema növü dövrün ruhunu, müəllifin istedadının bənzərsizliyini ifadə edir. Burada əsas amil publisistikadadır: "Sərt vətəndaşlıq mövqeyi, müəllifin mövzuya birbaşa münasibətinin kəskinliyi mənasında publisistika lirik başlanğıcın xüsusi ifadə formasıdır" [8, s.150]. Sabir Rüstəmxanlının poemasında vətən mövzusu, onun keçmişi və bu günü, xalqların bir-birilə əlaqəsi, doğma yurdun tarixi ilə bir-birinə qarışıb daha dərin fəlsəfi ictimai-siyasi məzmunla zənginləşmişdir. Şairin bədii təfəkkürünün özünəməxsusluqları vətəndaş pafosunu publisistika ilə birləşdirmək istəyində özünü göstərir.

Süjetli poemadan fərqi olaraq, lirik süjetli poemalar insanlar arasındakı ziddiyyəti deyil, həmin ziddiyyətlərin nəticəsini təsvir edir. Poemanın bu növü emosional təsir gücünə malikdir, şairlər əlində olan bütün texniki vasitələrdən məharətlə istifadə edərək bir təcrübəni başqalarına çatdırmağa çalışır.

## Nəticə / *Conclusion*

Nəticə olaraq qeyd edə bilərik ki, lirik poemanı müəyyən edən amillər iki səviyyədə: ümumi və xüsusi janr, yəni poemada formalaşan spesifik cəhətlər, konkret tarixi şərait nəzərə alınmaqla aydınlaşdırılmalıdır. Hər bir əsəri lirik poema adlandırmağa əsas verən ümumi xüsusiyyətlər də mövcuddur. Cabir Novruzun "İtmiş kəndin nağılları", "İnsan himnləri", S.Rüstəmxanlının "Bütövlük", "Vətənsiz" lirik səpkili poemaları da janra xas olan lirik qəhrəman, lirik süjet, lirik başlanğıc kimi əsas tipik xüsusiyyətləri özündə cəmləşdirir. Bununla belə, haqqında danışdığımız hər bir lirik poema növü mövzu, ideya, məzmun və forması, digər spesifik əlamətləri etibarilə bir-birindən fərqlənir.

## Ədəbiyyat / *References*

1. Alışanlı Ş. Ədəbi-bədii düşüncənin sərhədləri. Bakı: Sabah, 2010.
2. Xəlilov X. Müharibədən sonrakı Azərbaycan sovet ədəbiyyatında poema janrı (1945-1950): / filologiya üzrə fəlsəfə doktoru dis. Bakı, 1963.
3. Qarayev Y. Seçilmiş əsərləri. 5 cilddə, II cild. Bakı: Elm, 2015.
4. Novruzov C. Seçilmiş əsərləri. 2 cilddə, II cild. Bakı: Yazıçı, 1983.
5. Rüstəmxanlı S. Zaman məndən keçir. Bakı: Azərnəşr, 1995.
6. Yusifli V. Unudulmayan Cabir Novruz // "Ədəbiyyat qəzeti", 2013, 8 mart.
7. Белинский В. Полное собрание сочинений. В 9-ти томах, т. 6. Москва: Изд-во АН СССР, 1955.
8. Васильковский А. Жанровые разновидности русской советской поэмы 1917-1941. Опыт типологической характеристики. Киев: Вища школа, 1979.
9. Гуляев Н. Теория литературы: учебное пособие. Москва: Высшая школа, 1985.
10. Долгополов Л. Поэмы Блока и русская поэма конца XIX начала XX века. Москва: Наука, 1964.
11. Киканс В. Современная поэма. Рига: Зинатне, 1982.
12. Лотман Ю. О поэтах и поэзии: Анализ поэтического текста. Санкт-Петербург: Искусство – СПб, 1996.
13. Никонова Т. «Новый человек» в русской литературе 1900-1930-х годов: проективная модель и художественная практика. Воронеж: Изд-во Воронеж. гос. ун-та, 2003.
14. Суровцев Ю. О поэтах и поэзии. Тбилиси: Заря Востока, 1962.

## Жанровые особенности и типология лирических поэм Джабира Новруза и Сабира Рустамханлы

**Айтадж Исмаилли**
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: ismayilliaytac94@gmail.com

**Резюме.** В статье исследуются жанровые особенности и типология лирической поэмы на основе поэм Джабира Новруза «Сказки пропавшей деревни», «Гимны Человеку» и поэм Сабира Рустамханлы «Целостность» и «Без Родины». Поэма Джабира Новруза «Сказки пропавшей деревни» построена в форме речи лирического героя, стремящегося передать свои впечатления, ощущения. Свою печаль по поводу разрушенной деревни поэт выражает исходя из собственных наблюдений, воспоминаний, передавая таким образом свои основные мысли. Основу поэмы Джабира Новруза «Гимны Человеку» составляет поток мыслей и чувств лирического героя. Лирический герой выражает свои философские взгляды на мир и человека, на его чувства. В поэме «Без Родины», построенной в форме монолога, Сабир Рустамханлы пропагандирует национальные и патриотические чувства. В поэме-обращении «Целостность», имеющей общественно-политическое содержание, поэт отображает борьбу за объединение народа. Для поэта, использующего метод трансформации событий и идей, публицистическая речь становится особой формой выражения лирического начала. Проведенное исследование показало, что общие характерные признаки анализируемых лирических поэм – лирическое начало, лирический герой, лирический сюжет и ряд других особенностей. В то же время в результате исследования выяснилось, что эти поэмы отличаются по своей форме, содержанию, тематике, идее и другим индивидуальным специфическим особенностям.

**Ключевые слова:** лирическая поэма, лирический герой, ассоциативная поэма, лирико-философская поэма, поэма-обращение